No: 04 2025
https://doi.org/10.64400/ea25-4-16
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCAN ƏMƏK BAZARININ MÖVCUD PROBLEMLƏRİ VƏ HƏLL İSTİQAMƏTLƏRİ

**Natiq Seyfullazadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
**Yazışılan müəllif: seyfullazade44@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
əmək bazarı, işsizlik, Azərbaycanda məşğulluq, məşğulluq problemləri

**XÜLASƏ**
Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə, insan kapitalının gücləndirilməsinə, gender bərabərliyinin təmin edilməsinə və qeyri-rəsmi məşğulluğun azaldılmasına yönəlmiş dövlət strategiyalarının reallaşdırılması yalnız elmi əsaslandırılmış təhlillərlə mümkün ola bilər. Bu baxımdan, tədqiqat əmək bazarının problemlərinin dərinləşdirilmiş şəkildə araşdırılması və dayanıqlı inkişaf üçün praktik tövsiyələrin hazırlanması ilə diqqətəlayiqdir.
Məqalənin əsas məqsədi Azərbaycanda əmək bazarının mövcud vəziyyətini, struktur xüsusiyyətlərini və sosial-iqtisadi inkişaf baxımından qarşıya çıxan problemləri araşdırmaqdır. Tədqiqat ölkənin iqtisadiyyatının hələ də yüksək dərəcədə neft sektorundan asılı olduğunu, bunun isə məşğulluğun davamlı inkişafına maneə yaratdığını göstərir. Xüsusilə gənclər arasında işsizlik nisbətinin yüksək qalması, qadınların əmək bazarında iştirak imkanlarının məhdud olması, qeyri-rəsmi məşğulluğun geniş yayılması və təhsil ilə əmək bazarının tələbləri arasında uyğunsuzluq mövzunun aktuallığını artıran əsas amillərdir.
Tədqiqat metodoloji baxımdan deskriptiv statistika və müqayisəli təhlilə əsaslanır. İşsizlik göstəricilərinin illər üzrə dinamikası, sektorlar üzrə məşğulluğun bölgüsü, cinslər arasında fərqlər və qeyri-formal məşğulluğun payı statistik rəqəmlərlə təhlil olunmuşdur. Cədvəl və diaqramdan istifadə edilməsi nəticələrin aydın və müqayisəli təqdimatını təmin etmişdir.

## GİRİŞ

Əmək bazarı hər bir ölkənin sosial-iqtisadi inkişafının mühüm göstəricilərindən biridir. Azərbaycanda əmək bazarı son onillikdə mühüm dəyişikliklərə məruz qalsa da, hələ də struktur problemlər öz aktuallığını qoruyur. Ölkənin iqtisadi artımı əsasən neft sektoruna bağlı olduğundan digər sahələrdə dayanıqlı məşğulluğun təmin olunması çətinləşir. Gənclər arasında işsizlik səviyyəsinin yüksək olması, qadınların əmək bazarında kişilərlə müqayisədə daha məhdud iştirakçılığı, qeyri-rəsmi məşğulluğun geniş yayılması və təhsil ilə əmək bazarının tələbləri arasındakı uyğunsuzluq əsas çağırışlar kimi çıxış edir. Bu problemlərin aradan qaldırılması üçün iqtisadiyyatın diversifikasiyası, insan kapitalına sərmayələrin artırılması, peşə təhsilinin gücləndirilməsi və gender bərabərliyinin təmin olunması vacib istiqamətlər hesab olunur. Azərbaycanın 2022–2026-cı illər sosial-iqtisadi inkişaf strategiyasında da bu prioritetlər xüsusi vurğulanır və əmək bazarının dayanıqlı inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

## ƏSAS HİSSƏ:

Azərbaycan Statistika Komitəsinin "Əmək bazarı" illik bülleteninə görə, 2025-ci ilin I rübündə iqtisadi fəal əhali təxminən 5.54 milyon nəfər təşkil edib (ARDSK, 2024). Onlardan 5.03 milyon nəfəri məşğul, təxminən 0.27 milyon nəfəri isə işsiz olub. İşsizlik səviyyəsi azalaraq 2025-ci ilin mart ayında 5.30%-ə çatmış, 2024-cü ilin sonunda bu göstərici 5.59% idi. 2025-ci ilin sentyabrında rəsmi hesablamalara görə işsizlik 5.2%-ə düşmüşdür, yəni bir il əvvəlki səviyyə ilə müqayisədə (2024-cü ilin sentyabrı 5.4%) daha da aşağıdır. Bu rəqəmlər COVID-19 pandemiyasının pik dövründə (2021-ci ilin yanvarında 7.2%) gördüyümüz yuxarı həddən təxminən 2 faiz bəndi aşağıdır (https://www.theglobaleconomy.com/Azerbaijan/Unemployment_rate/).

Dövlət Məşğulluq Agentliyinin məlumatına görə də 2025-ci il sentyabrın 1-nə agentliyin qeydiyyatında 237 min işsiz qeydiyyata alınmış, onların yarıdan çoxunu qadınlar təşkil etmişdir.

**Şəkil 1.** Azərbaycan əmək bazarının əsas parametrləri üzrə dinamik göstəricilər

| Əlaqədar göstəricilər | Ən son | İstinad | Ölçmək |
|---|---|---|---|
| İşçi qüvvəsi | 5.54 | 2023 | milyon insan |
| İşsizlik səviyyəsi | 5.59 | 2024 | faiz |
| Qadın işsizliyi | 6.47 | 2024 | faiz |
| Kişi işsizliyi | 4.72 | 2024 | faiz |
| Gənclərin işsizliyi | 13.72 | 2024 | faiz |
| İşçi qüvvəsinin iştirakı | 62.93 | 2024 | faiz |
| İşçi qüvvəsi: faiz qadın | 49.86 | 2024 | faiz |
| Qadın işçi qüvvəsinin iştirakı | 60.35 | 2024 | faiz |
| Kişi işçi qüvvəsinin iştirakı | 65.71 | 2024 | faiz |
| Öz-özünə məşğulluq | 67.10 | 2022 | faiz |
| Məşğulluq | 5.06 | Q2/2025 | milyon məşğul insan |
| İşsizlik səviyyəsi | 5.30 | Q2/2025 | faiz |
| Əmək haqqı | 358.48 | Q2/2025 | indeks nöqtələri |

**Mənbə:** https://www.theglobaleconomy.com/Azerbaijan/Unemployment_rate/

Azərbaycan əmək bazarı qlobal dəyər zəncirlərinin yenidən qurulduğu, rəqəmsallaşmanın sürətləndiyi və enerji keçidinin gündəmi müəyyən etdiyi bir mərhələdədir. Neft gəlirlərinin tsiklik xarakteri, qeyri-neft sektorunda dərinləşən struktur transformasiya tələbi və demoqrafik dinamikalar bazarda həm kəmiyyət, həm də keyfiyyət baxımından gərginlik yaradır. Bu mühitdə əmək məhsuldarlığı, insan kapitalının səriştə profili və formal məşğulluğun payı iqtisadi sabitliyin başlıca determinantlarına çevrilir.

Mövcud çağırışların nüvəsində üç istiqamət dayanır:

1) İnstitusional uyğunsuzluq – əmək münasibətlərinin şəffaflığı, müqaviləlləşmə və sosial sığorta mexanizmlərinin yetkinləşməməsi;

2) Bazar–təhsil kəsişməsində səriştə boşluğu – peşə hazırlığının texnoloji tələblərlə asinxronluğu, STEAM və yaşıl bacarıqların çatışmazlığı;

3) İnklüzivlik defisiti – gənclər və qadınlar üçün tranzit mexanizmlərinin zəifliyi, regionlararası imkan fərqləri, habelə beynəlxalq miqrasiya axınlarının "beyin axını"na çevrilməsi.

Bu faktorlar əməkhaqqı diferensiallarını genişləndirir, qeyri-rəsmi məşğulluğu stimullaşdırır və müəssisələrin rəqabət qabiliyyətini məhdudlaşdırır.

Bütün dünyada olduğu kimi Azərbaycanda da əmək bazarında müəyyən boşluqlar var. Bunlara daha yaxından nəzər salaq:

1. *İşsizlik və Məşğulluğun Keyfiyyəti:* Rəsmi işsizlik nisbəti son illərdə 5% səviyyəsində sabitləşsə də, bu rəqəmlər işsiz qalan bütün şəxsləri əhatə etmir. Özəl sektorda daimi iş yerlərinin məhdudluğu gənclər arasında gərginlik yaradır. 2020-ci ildə gənclər (15-24 yaş) arasında işsizlik təxminən 15%-ə yaxın idi və 2024-cü ilə qədər bu, hələ də təxminən 13-14% idi. Ümumən gənclər əsasən peşə-ixtisas sertifikatı olmadan, yüksək tələbatlı peşələrdə təcrübəsiz olması səbəbindən iş tapa bilmirlər. Eyni zamanda əmək bazarına yeni buraxılan ali təhsilli gənclər üçündə işsizlik adi hala çevrilib. Müəssisələrin yeni məzun olmuş tələbələrdən yüksək təcrübə tələb etməsi, yada "qatı" qaydalar tətbiq etməsi günümüzdə gənclərimizin işsizliyinə səbəbiyyət verir. Nəticədə gənclər arasında qeyri-rəsmi məşğulluq, yarımştat işlər yayılır. Eyni zamanda sözün əsl mənasında insan əməyindən sui-istifadə edən qeyri-rəsmi şirkətlərdə yüksək potensiallı gənclərimiz məhv olur.

2. *Qeyri-formal (özünüməşğulluq) məşğulluq:* Əməyin qeyri-rəsmi sektoru (özəl kiçik biznes, ailə təsərrüfatı, sahibkarlıq və s.) geniş yayılmışdır. Yuxarıda qeyd edildiyi kimi, işləyənlərin yarıdan çoxu (68%-i) formalaşmamış iş yerlərində çalışır. Qeyri-formal məşğulluğun artımı ilə bağlı problemlərdən biri onun vergidən yayınma və sosial müdafiə şəbəkəsindən kənarda qalma, işçilərin əmək haqqının rəsmi qeydiyyatda olmaması səbəbindən işsizlik sığortası və pensiya hüquqlarından

məhrum olmasıdır. Dördüncü sənaye inqilabı şəraitində rəqəmsallaşma və iqtisadi strukturun dəyişməsi belə qeyri-formal məşğulluğun azaldılmasını tələb edir, amma bu sahədə hələ də genişmiqyaslı islahatlar başlanmayıb.

3. *Qadınların əmək bazarında iştirakının spesifik çətinlikləri:* Qadınların əmək bazarında iştirakı göstərici olaraq yüksək olsa da (qadınların əmək qüvvəsində iştirakı 2024-cü ildə 60.35% idi), onlar daha çox aşağı gəlirli sahələrdə toplaşırlar. Dünya Bankını (World Bank) araşdırmasında qeyd edildiyi kimi, keçən əsrin sonuna qədər Azərbaycanda qadınların 674 ixtisas üzrə işləməsi ümumiyyətlə qadağan edilmişdi (https://www.worldbank.org/ext/en/home). Bu qadağalar yalnız 2022-ci ilin noyabrında, qadınların təhlükəsizlik standartlarına uyğun gələ biləcəyi müəyyən edilmiş ixtisaslarda ləğv edilmişdir. Təəssüf ki, uzun illər ərzində bu məhdudiyyətlər qadınların peşə seçiminə və əməkhaqqına mənfi təsir göstərib. Nəticədə iqtisadi fəal qadınların çoxu səhiyyə, təhsil və xidmət sahələrində, kişilər isə yüksək gəlirli "tikinti-enerji-nəqliyyat" sektorunda çalışırdı. Bu struktur ayrıseçkiliyi gender əməkhaqqı fərqinin yaranmasına səbəb olur. Dünya Bankının hesablamalarına görə, Azərbaycanda kişilərin orta aylıq əməkhaqqı qadınlardan orta hesabla 35.2% çoxdur ki, bu göstərici Avropa və Mərkəzi Asiyada ən yüksək səviyyələrdəndir. Eyni zamanda, ailə və uşaqlara baxım məsələləri, işə qəbulda cinsiyətə görə ayrı-seçkilik (məcburi tibb arayışı, mənfi stereotiplər) kimi "yumşaq" faktorlar qadınların iqtisadi iştirakını daha da çətinləşdirir (https://www.worldbank.org/ext/en/home).

*4. Bacarıq çatışmazlığı və struktural uyğunsuzluq:* Əmək bazarında müvafiq peşə və ixtisas çatışmazlığı vacib problemdir. Məsələn, ölkə təhsil sistemindən kənar qalan, peşəkarlıq səviyyəsi aşağı və ya iş bazarının tələblərinə uyğun gəlməyən şəxslər kifayət qədər çoxdur. Eyni zamanda, texnoloji və servis sektoru sürətlə inkişaf edir, lakin əmək bazarında bunların tələbinə uyğun kadr hazırlanması zəifdir. Nəticə etibarilə, mütəxəssislər bəzi sahələrdə iş tapanda, bəzi yüksək tələbatlı ixtisaslarda (məs. proqramlaşdırma, müasir istehsal) kadr çatışmazlığı yaranır.

*5. Əlverişli (aktiv) işçi qüvvəsi siyasətinin zəifliyi:* İşsizlik sığortası və məşğulluq dəstək proqramları kifayət qədər güclü deyil. Dünya Bankının hesabatında qeyd olunduğu kimi, əmək bazarında işsizlərə və iş axtaranlara göstərilən sosial dəstək azdır. Hazırda bir çox işsizlik hallarında işçilərə məhdud sayda aylıq sığorta yardımı göstərilir (hazırkı orta məbləğ təqribi 436 manat), amma bu yardım əmək bazarında uzunmüddətli işsiz qalmaqdan qoruyan kifayət qədər geniş sosial sığorta funksiyasını yerinə yetirmir. Peşə kurslarının sayı artsa da, onlar çox vaxt işəgötürənlərin real tələblərinə uyğun təşkil olunmur. İşsizlərin məşğulluq mərkəzlərinə cəlb edilməsi və yenidən iş tapmaları üçün zəmin yaradılmağına baxmayaraq, mövcud sistem tam formalaşmayıb.

*6. Regional Dispariteler:* Mərkəzləşdirilmiş iqtisadi inkişafa görə regionlararası fərqlər də mövcuddur. Cənub zonaları, mərkəzi Aran, Gəncə-Qazax və Dağlıq Qarabağ kimi məhdud resurslu və iş yeri baxımından az imkanlı ərazilərdə işsizlik səviyyəsi daha yüksəkdir deyə bilərik. Əsas bölgələrdən kənara gedən layihələr, resurslar və investisiyalar bu fərqləri azaltmaq üçün adekvat deyildir.

Biz mövcud problemlərlə tanış olduq. İndi isə bu problemlərin həlli istiqamətində lazım olan islahatlarla tanış olaq:

- *Peşə və bacarıq hazırlığının gücləndirilməsi:* Ən vacib addımlardan biri bazar tələbatına uyğun təhsil və peşə hazırlığı sistemidir. Dünya Bankının təklif etdiyi kimi, təhsil müəssisələri ilə işəgötürənlər arasında sıx əlaqə yaradılmalı, kursların məzmunu sənaye tələblərinə uyğunlaşdırılmalıdır. Həmçinin, təlim proqramlarının müxtəlif yaş qrupları, cinslər və yerli şərait nəzərə alınaraq çevik (individual) formalaşdırılması məsləhətdir (kişi-qadın ayrı proqramları, hərbi buraxılışını başa vurmuş gənclər, yaşlı işsizliklə mübarizə proqramları və s.).
- *Məşğulluq xidmətlərinin inkişaf etdirilməsi:* Əmək bazarında uyğunlaşmanı və işəgötürənlərlə iş axtaranları birləşdirmək üçün yeni məkanlar qurulmalıdır. Məsələn, rəqəmsal məşğulluq platformalarının (onlayn vakansiya bazarları, video müsahibə imkanları) genişləndirilməli, əmək haqları və peşə tələbləri barədə açıq statistika mənbələrinin yaradılması tövsiyə edilir. Məşğulluq Agentliyi tərəfindən daha çox elektron xidmətlər təqdim olunmalı, işsizlərə distant məşğulluq məsləhətləri verilməli, bölgələr üçün iş axtarış platformaları hazırlanmalıdır.

• *Aktiv məşğulluq proqramları (ALMP) və sosial müdafiə islahatları:* İşsizlikdən sığorta və fəal məşğulluq tədbirləri genişləndirilməlidir. Qısamüddətli təkrar hazırlıq kursları, təcrübə keçmə və məşğulluğa kömək mərkəzləri kimi proqramlar işsizləri əmək bazarına qaytara bilər. Qanuni əmək müqaviləsinin səbəbi ilə qeydiyyatsız çalışanların sosial müdafiəsi üçün sosial sığorta paketləri genişlənməli, uzunmüddətli işsizlik halında şərait yaradılmalıdır.

• *Gender bərabərliyini təşviq edən tədbirlər:* Qadınların əmək bazarına effektiv inteqrasiyasını artırmaq üçün vəkil işlər gücləndirilməlidir. Bu məqsədlə, qadınlara məxsus biznes təşəbbüslərinə kredit və qrantların verilməsi, cinslərarası əməkhaqqı fərqinin azaldılması, iş yerində ayrı-seçkiliyin qarşısını almaq üçün nəzarət mexanizmlərinin tətbiqi tələb olunur.

• *Məhsuldarlığı və iş yerlərini artıran iqtisadi siyasət:* Özəl sektorda iş yerlərinin yaradılmasını təşviq edən tədbirlər artırılmalıdır. Məsələn, sənaye, kənd təsərrüfatı və xidmət sahələrində investisiyaların qoyuluşunu asanlaşdırmaq üçün vergi güzəştləri, subsidiyalar və kredit mexanizmləri tətbiq edilə bilər. Dünya Bankı tərəfindən təklif edildiyi kimi, bu subsidiya və stimullar potensial iş yarada biləcək sahələrə yönəldilməlidir. Xüsusilə xidmət sektorunun (turizm, informasiya texnologiyaları, logistika) potensialı yüksəkdir və orada əlavə işçi qüvvəsinə ehtiyac var. İxracatın və regional emal sənayesinin inkişafına istiqamətlənmiş layihələr (məs. iqtisadi zonalar, sənaye parkları) daha çox iş yeri yaradacaq. Eyni zamanda sahibkarlıq mühitini yaxşılaşdırmaq üçün kredit bazalarına giriş asanlaşdırılmalı, sahibkarların yeni texnologiya sahələrinə keçidi dəstəklənməlidir.

• *Beynəlxalq əmək əlaqələrinin gücləndirilməsi:* Yüksək ixtisaslı kadrların xaricə axınının qarşısını almaq üçün motivasiyaedici tədbirlər görülməlidir. Bu, yalnız maaşların artırılması və karyera inkişafı imkanlarının yaradılması ilə həyata keçə bilər. Həmçinin, Azərbaycan diasporu ilə əlaqələr genişləndirilməli, xaricdə yaşayan azərbaycanlı mütəxəssislərin ölkəyə investisiya yatırmaları üçün şərait yaradılmalıdır. Təhsilin modernləşdirilməsi, araşdırma institutlarının qloballaşması və “remote work” (uzaqdan iş) imkanlarının genişlənməsi sayəsində xaricdə işləyən gənc ixtisaslı kadrların ölkədəki layihələrə cəlb edilməsi mümkündür.

## NƏTİCƏ

Azərbaycan əmək bazarında mövcud problemlər həm struktur, həm də institusional xarakter daşıyır. Ölkədə işsizlik səviyyəsinin rəsmi statistikada aşağı görünməsinə baxmayaraq, qeyri-formal məşğulluğun yüksək payı, gənclər və qadınlar arasında işsizlik göstəricilərinin yuxarı olması əmək bazarının dayanıqlı inkişafını məhdudlaşdırır. Təhsil sistemi ilə əmək bazarının tələbləri arasında ciddi uyğunsuzluqlar müşahidə olunur ki, bu da bacarıq çatışmazlığı və səriştə boşluğu yaradır. Digər tərəfdən, neft sektorunun hələ də iqtisadiyyatdakı dominant mövqeyi qeyri-neft sahələrində iş yerlərinin artımını ləngidir, regional fərqləri dərinləşdirir.

Problemlərin həlli istiqamətində bir neçə vacib addım fərqləndirilir. Əvvələ, iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektoruna sərmayələrin artırılması sabit məşğulluq yaratmaq baxımından həlledici rol oynayır. İkincisi, təhsil və peşə hazırlığı sisteminin əmək bazarının real tələblərinə uyğunlaşdırılması, rəqəmsal və yaşıl bacarıqların inkişafı prioritet olmalıdır. Bundan əlavə, gender bərabərliyinin təmin olunması, qadınların yüksək gəlirli sahələrə inteqrasiyası və sosial müdafiə mexanizmlərinin gücləndirilməsi əmək bazarının inklüzivliyini artıracaq.

Nəticə olaraq, Azərbaycanın əmək bazarının modernləşdirilməsi yalnız kompleks islahatlar, dövlət siyasətinin bazar mexanizmləri ilə uzlaşdırılması və insan kapitalına uzunmüddətli investisiyalar yolu ilə mümkündür. Bu, dayanıqlı inkişaf və sosial rifahın əsas təminatçısı olacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). Əmək bazarı göstəriciləri haqqında statistik bülleten. Bakı.( https://stat.gov.az/)
2. McKinsey & Company. (2022). The Future of Work after COVID-19: Azerbaijan in Focus.
3. https://www.theglobaleconomy.com/Azerbaijan/Unemployment_rate/ (2025)
4. https://banker.az/dsk-az%C9%99rbaycanda-issizlik-s%C9%99viyy%C9%99si-5-2-%C9%99-dusub-bu-son-ill%C9%99rin-

minimumudur/#:~:text=2025,n%C9%99f%C9%99rini%20m%C9%99%C5%9F%C4%9Ful%20%C9%99hali%20t%C9%99%C5%9Fkil%20edib (2025)
5. https://dma.gov.az/qanunvericilik/serencamlar#:~:text=Image%3A%20S%C9%99r%C9%99ncamlar (2025)
6. https://www.worldbank.org/ext/en/home (2025)

## РЕЗЮМЕ

## АЗЕРБАЙДЖАНСКИЙ РЫНОК ТРУДА: СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ И НАПРАВЛЕНИЯ РЕШЕНИЯ

**Натиг Сейфуллазаде**

Реализация государственных стратегий, направленных на диверсификацию экономики, укрепление человеческого капитала, обеспечение гендерного равенства и сокращение неформальной занятости в Азербайджане, возможна только при научно обоснованном анализе. В этой связи исследование отличается глубоким изучением проблем рынка труда и подготовкой практических рекомендаций по устойчивому развитию.

Основная цель статьи – изучить современное состояние рынка труда в Азербайджане, его структурные особенности и проблемы, возникающие в контексте социально-экономического развития. Исследование показывает, что экономика страны по-прежнему сильно зависит от нефтяного сектора, что создает препятствия для устойчивого развития занятости. Высокий уровень безработицы, особенно среди молодежи, ограниченные возможности участия женщин на рынке труда, широкое распространение неформальной занятости и несоответствие образования требованиям рынка труда.

Исследование основано на методологической основе описательной статистики и сравнительного анализа. С помощью статистических данных проанализирована динамика показателей безработицы по годам, распределение занятости по секторам, гендерные различия и доля неформальной занятости. Использование таблиц и диаграмм обеспечило наглядное и сравнительное представление результатов.

**Ключевые слова:** *рынок труда, безработица, занятость в Азербайджане, проблемы занятости*

## ABSTRACT

## AZERBAIJAN LABOR MARKET: CURRENT PROBLEMS AND SOLUTION DIRECTIONS

**Natiq Seyfullazade**

The implementation of state strategies aimed at diversifying the economy, strengthening human capital, ensuring gender equality and reducing informal employment in Azerbaijan can only be possible with scientifically based analyses. In this regard, the study is notable for its in-depth study of labor market problems and the preparation of practical recommendations for sustainable development.

The main purpose of the article is to examine the current state of the labor market in Azerbaijan, its structural features and the problems encountered in terms of socio-economic development. The study shows that the country's economy is still highly dependent on the oil sector, which creates obstacles to the sustainable development of employment. The high unemployment rate, especially among young people, limited opportunities for women to participate in the labor market, the widespread use of informal employment and the mismatch between education and labor market requirements are the main factors that increase the relevance of the topic.

The study is based on descriptive statistics and comparative analysis from a methodological point of view. The dynamics of unemployment indicators by year, the distribution of employment by sector, gender differences and the share of informal employment were analyzed with statistical figures. The use of tables and diagrams provided a clear and comparative presentation of the results.

**Keywords:** *labor market, unemployment, employment in Azerbaijan, employment problems*